IMPERIAL BRANDS

**Açıq danışmaq**
Uyğunluq Kodeksi və ya Təchizatçı Kodeksimizdə qanun pozulması ilə bağlı şübhəniz və ya narahatlığınız olarsa, açıq danışmanızı istərdik.

Biz hər kəsi səmimi olmağa həvəsləndiririk və əbəs yerə narahat olduqları halda belə, narahatlığını bildirən hər bir kəsə dəstək olacağıq.

Bizim Uyğunluq Kodeksi və ya Təchizatçı Kodeksimiz intranet vasitəsilə və ya www.imperialbrandsplc.com ünvanından əldə edilə bilər. Siz suallarınızı Governance.Team@impbrands.com ünvanına göndərə bilərsiniz

**Açıq danışmağın bir neçə yolu mövcuddur:**

**1. Yerli səviyyədə açıq danışmaq**
Əgər bu sizin üçün əlverişlidirsə, narahatlığınızı işə götürmə menecerinizə və ya İnsanlar və Mədəniyyətə bildirməlisiniz.

**2.** Qrupla açıq danışmaq
Narahatlığınızı yerli həmkarlarınızla paylaşmaq istəmirsinizsə və ya onlara narahatlığınızı bildirmiş və aldığınız cavabdan kifayətlənməmisinizsə, o zaman avtomatlaşmış Məxfi Bildiriş Sistemi vasitəsilə məsələni qaldıra bilərsiniz. Bu, təhlükəsiz və asan açıla və istifadə edilə bilən sistem olub, hesabatın qısa zamanda müvafiq şəxslərə çatdırılmasını təmin edəcəkdir. İstəsəniz, hesabatınızı anonim şəkildə də göndərə bilərsiniz.

Siz kompüter və ya mobil cihazınızdan https://imperialbrands.whistleblowernetwork.net səhifəsinə daxil olaraq sistemə çıxa bilərsiniz. Və ya cihazınızın kamerası ilə aşağıdakı QR kodu skan edə bilərsiniz:

Sistemə daxil olduqda, siz yazılı hesabat təqdim edə və ya səsli mesaj göndərə (hazırda iOS sistemlərində dəstəklənmir), eləcə də istədiyinizdə hesabatınızı dəstəkləmək üçün sənədlər, şəkillər və ya videolar qoşa bilərsiniz. Səsli mesaj yazmağı seçsəniz, anonim qalmaq istədiyinizdə kimliyinizi qorumaq üçün sizin səsiniz dəyişdiriləcəkdir.

Tərcih etdiyiniz təqdirdə, müəyyən ölkələrdə yerli nömrəyə pulsuz zəng edərək avtomatlaşmış təlimatlara əməl edib mesaj saxlaya bilərsiniz. Bu ölkə və nömrələrin siyahısı ilə aşağıda tanış ola bilərsiniz. Yönləndirildikdə sadəcə 25492 kodunu daxil edin.

Seçimizdən asılı olmayaraq, sizdən bizim sistem vasitəsilə sizinlə təhlükəsiz və səmərəli əlaqə yatarmağımızı və nəticələri təmin edən Təhlükəsiz Poçt qutusu yaratmağa dəvət ediləcəksiniz.

**Sizin üçün zəmanətimiz**
Biz qaldırdığınız məsələ ilə bağlı anonimlik və məxfiliyi mümkün qədər saxlayacağıq. Lakin, düzgün araşdırma aparmaq üçün bəzi məlumatlar açıqlanmalı ola bilər.

İşlədiyiniz ölkənin qanunları buna icazə verdikdə siz anonim şəkildə məsələ qaldırmağı seçə bilərsiniz.

Biz narahatlığını bildirən və ya araşdırma aparılmasında bizə köməklik göstərən insanlara qarşı cavab zərbəsinin göstərilməsinə yol vermirik.

Noyabr 2020

2024-cü ilin avqustunda yenilənib